**2009 07 23 21:23**
**MƏNBƏ: www.anspress.com**

# Prezident Bakı dairəvi avtomobil yolunun tikintisi ilə tanış olub

## Dairəvi yolun 2010-cu ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulur



Bu gün prezident İlham Əliyev Bakı dairəvi avtomobil yolunun tikintisi ilə tanış olub. Prezidentə məlumat verilib ki, əsas yolun uzunluğu 21,5, köməkçi yolların uzunluğu isə Biləcəri enişi ilə birlikdə11,65 kilometrdir. Alti hərəkət zolaqlı yolun torpaq yatağının eni 33,5, əsas yolun hərəkət hissəsinin eni 22,5, hərəkət zolaqlarının hər birinin eni 3,75, yolun asfalt örtüyünün qalınlığı 19-27 santimetr olacaq. Torpaq işlərinin 60, asfalt işlərinin 11, drenaj borularının çəkilməsinin 90, kommunikasya xətlərinin köçürülməsi işlərinin 80 faizi başa çatdırılıb.

Həmçinin ölkə başçısına yolun istinad divarlarının texniki-iqtisadi göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, yolun tikintisi zamanı yamaclarda aşkar edilən çatların və sürüşmənin qarşısının alınması məqsədi ilə 22 min 359 kvadratmetrlik torpaq istinad divarlarının çəkilməsi nəzərdə tutulub.

Sonra İlham Əliyev Bakı dairəvi yolunun Bakı-İran sərhədi avtomagistralı ilə birləşəcək hissəsinə gəlib. Prezidentə məlumat verilib ki, layihə çərçivəsində 6 körpü, 1 yeraltı avtomobil keçidi,1 yeraltı piyada keçidi və 4 avtobus dayanacağının inşası nəzərdə tutulub. Artıq körpülərin tikintisinin 80 faizi, yeraltı keçidlərin tikintisinin 96 faizi başa çatdırılıb.

Ümumilikdə, işlərin 63 faizinin başa çatdirildığı Bakı dairəvi yolunun 2010-cu ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulur. /Azərtac/

*© 2008-2009 Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən ANS-PRESS-ə istinad zəruridir.*